Grant Thornton
An instinct for growth ™

**Public Accountants**
4th Floor
Landmark III Building
90A Nizami Str.
Baku AZ1010
Azerbaijan Republic
Tel. : +994 12 4936860/
+994 12 4988067
E info@az.gt.com

# Müstəqil auditor rəyi

**İpək Yolu Sığorta ASC-nin (əvvəlki adı Azal Sığorta ASC) səhmdarlarına**
**Bakı – Azərbaycan Respublikası**

**Maliyyə vəziyyəti barədə hesabat**
Biz İpək Yolu Sığorta ASC-nin (əvvəlki adı Azal Sığorta ASC) (bundan sonra "Cəmiyyət") 31 dekabr 2014-ci il tarixinə olan balansı, həmin tarixdə başa çatmış il üzrə mənfəət və zərər hesabatı, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitinin hərəkəti haqqında hesabatlardan, eləcədə əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin icmalından ibarət maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

**Maliyyə hesabatlarının hazırlanmasına rəhbərliyin məsuliyyəti**
Rəhbərlik bu maliyyə hesabatlarının maliyyə hesabatlarına dair qeydlərdə göstərildiyi kimi Ümumi Mühasibat Uçotu Standartlarına uyğun hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də hesabatlarının saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

**Auditorun məsuliyyəti**
Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy verməkdən ibarətdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Standartların tələbinə görə, biz etik tələblərə riayət etməli və auditi maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin olmadığına dair qənaətbəxş əminlik yaranacaq şəkildə planlaşdırmalı və aparmalıyıq.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də saxtakarlıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditorlar müəssisəsinin daxili nəzarət sisteminin səmərəliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və obyektiv şəkildə təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirilməlidir. Bundan əlavə, audit yoxlamasına mövcud mühasibat siyasətinin uyğunluğunun və rəhbərliyinin mühasibat təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, audit rəyimizi bildirmək üçün kifayət qədər və müvafiq audit sübutları əldə etmişik.

**Rəy**
Bizim rəyimizcə, maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından cəmiyyətin 31 dekabr 2014-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini maliyyə hesabatlarına dair qeydlərdə göstərildiyi kimi Ümumi Mühasibat Uçotu Prinsiplərinə uyğun olaraq düzgün əks etdirir.

**Grant Thornton**
**Bakı, Azərbaycan Respublikası**

**Tarix: 31 Mart 2015**

Məhdud Məsuliyyətli Cəmiyyəti, Dubay, BƏƏ
Azərbaycan Respublikasındakı
FİLİALI
Grant Thornton
BRANCH
in the Republic of Azerbaijan
Limited Liability Partnership, Dubai, UAE